***Türkiyə Cümhuriyyətinin Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın Azərbaycana növbəti səfəri ölkə ictimaiyyətində yüksək əhvali-ruhiyyə və coşqu yaradıb. Hesab edirəm ki, bu tarixi səfər çərçivəsində iki qardaş ölkə liderlərinin birlikdə Füzuli Beynəlxalq Hava Limanının açılış mərasimində, Zəngilan rayonunda "Dost Aqropark"ın və "Zəngəzur" dəhlizinin təməlqoyma mərasimlərində iştirak etməsi bütün dünyaya verilən birlik və qardaşlıq mesajıdır. Bu gün dünyada bir-birinə Azərbaycan və Türkiyə qədər yaxın olan ikinci belə əsl qardaşlıq nümunəsi tapmaq çətindir.***

# Azərbaycan-Türkiyə münasibətləri yüksələn xətt üzrə inkişaf edir

Azərbaycan 44 gün davam edən Vətən müharibəsində əldə etdiyi tarixi Zəfərin ildönümü ərəfəsində Füzuli Beynəlxalq Hava Limanını istifadəyə verməklə hansı potensiala malik oduğunu, nəyə qadir olduğunu bütün dünyaya nümayiş etdirdi. Müharibədən sonra keçən bir il ərzində işğaldan azad olunmuş ərazilərdə Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə həyata keçirilən geniş miqyaslı tikinti –quruculuq, bərpa işləri bütün dünyaya göstərir ki, Azərbaycan bütün sahələrdə müasir tələblər səviyyəsində sürətlə inkişaf edərək qarşıya qoyduğu bütün vəzifələri uğurla həyata keçirmək əzmindədir.



Fikrimcə, Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyə dövlətinin başçısı Rəcəb Təyyib Ərdoğanla birlikdə sözügedən açılış və təməlqoyma mərasimlərində iştirakı ölkələrimiz və xalqlarımız arasında möhkəm birliyin və həmrəyliyin olduğuna bariz nümunədir. Bəli, biz birlikdə güclüyük, bu gün belədir, sabah da belə olacaq.

Azərbaycan xalqı və dövləti Türkiyənin İkinci Qarabağ müharibəsində ölkəmizə hərtərəfli dəstəyini yüksək dəyərləndirir. Azərbaycan Prezidenti bu barədə belə demişdir: "İkinci Qarabağ savaşının ilk saatlarından son dəqiqələrinə qədər Türkiyə Azərbaycanın yanında olmuşdur. Əziz qardaşım, hörmətli Cümhurbaşqanı ilk saatlarda Azərbaycana dəstək göstərdi, bütün dünyaya bəyan etdi ki, Azərbaycan tək deyil, Türkiyə Azərbaycanın yanındadır. Bu, bizə çox böyük siyasi və mənəvi dəstək, əlavə güc verdi. Əziz qardaşım, bu gün Azərbaycan xalqı haqlı olaraq Sizə öz təşəkkürünü bildirir. Bilirsiniz ki, Azərbaycanda hər kəs Sizi sevir, Sizə böyük hörmətlə yanaşır. Siz bizim Zəfərimiz üçün çox böyük işlər görmüsünüz və bu gün artıq quruculuq dövründə, bərpa dövründə yenə də bizimlə bərabərsiniz".



Burada bir məqamı da vurğulamaq istəyirəm. Füzuli Beynəlxalq Hava Limanının istifadəyə verilməsi təkcə bu rayonun deyil, bütövlükdə Qarabağın, Şərqi Zəngəzurun hərtərəfli inkişafına şərait yaradacaq. Bu hava limanı yerləşdiyi coğrafi məkana görə bütün türk dünyası üçün mühüm nəqliyyat mərkəzinə çevriləcək. Zaman artıq sübut edir ki, XXI əsr tarixə türk əsri kimi düşəcək.

Hazırda Azərbaycan –Türkiyə münasibətləri tarixdə özünün ən yüksək səviyyəsini yaşayır və bu münasibətlər ildən-ilə daha də möhkəmlənəcək və daha yüksək inkişaf mərhələləri fəth olunacaq.

***Atamoğlan MƏMMƏDLİ,***
***Bakı Dövlət Universitetinin dosenti,***
***tarix elmləri üzrə fəlsəfə doktoru***

Xalq qəzeti.- 2021.- 28 oktyabr.- S.4.